# QARIŞIQ ZAMANIN OVQATI

## *Gülər Eldarqızının "BURULĞAN" romanı haqqında*

Yeni ilin ilk günündə yazı yazmaq, oxucu ilə həmsöhbət olmaq o qədər də asan gəlmir. Görünür, burda həm istirahət günlərinin, həm də adamın bir az yazı-pozudan uzaq düşməsinin təsiri qaçılmazdı. Ümumiyyətlə isə əli bir az işdən soyudanda yenidən köklənmək o qədər də asan olmur. Bax, bütün bu məlum arqumentlərin yaratdığı təsdirlərə baxmayaraq, mən çox qısa bir zaman içərisində oxuyub fikirlərimi bölüşmək istədiyim bir kitab var. Və burda tam səmimiyyətimlə da etiraf edim ki, kitab həm adı, həm tərtibatı ilə yanaşı, mövzusu ilə maraqlıdı. Üstəlik kitabı mənə maraqı edən müəllifini şair kimi tanımağımdı. Ona görə də şeirlərinə bələd olduğum Gülər xanımın bu kitabını oxuyub başa çıxanda peşman olmadım. Əksinə, xoş təəssüratlar içərisində özüm üçün Gülər xanımın romanını bir oxucu süzgəcindən keçirdim. Və...

Roman hardasa bir ailə dramına bənzər süjet üzərində qurulub. Mən ədəbiyyat tənqidçisi olmasam da, normal bir oxucu kimi bu süjetin yanakı xətlərini yamaq kimi görmədim. Əksinə, onlar bu və ya digər şəkildə əsas xəttin inkişafına təkan verib, onu müəyyən məqamlarda da ətə-qana doldurub. Belə ki, həyatın bütün çətinliklərini yaşamış, necə deyərlər, sınaqlara sinə gərmiş Bibixanım Gülər xanımın təqdimatında həm zəhmətkeş, həm peşəkar saç ustası, həm də yığımcıl, mal-mülk sahibi olmaq imkanına malik bir obrazın təmsilçisidir. Romanın müəllifi əsas qəhrəmanını əyalətdən, baba himayəsindən uzaq düşəndən sonra götürüb paytaxta gətirir. Baba mirası üzərində öz həyat yolunu quran Bibixanım zaman-zaman özünü təsdiq edir. Yəni o, həyata sevgidən daha çox yaşam ünvanı kimi bir prizma altında baxır. Necə deyərlər, daha çox işləyib, daha çox qazanmaq və adi bir həyat yaşamaq. Ona görə də oğul və qızı, eləcə də həyat yoldaşı tamam fərqli dünyagörüşlərlə öz ömürlərini yaşayırlar. Doğrudur, qız ailə qurub, oğul isə ölkədən kənarda yaşayır və nə vaxt qayıdıb ailə quracağı məlum deyil. Evin kişisi alkoqol xəstəsidi. Yalnız arvadın qazancıyla araq içib gününü axşam edir. Bütövlükdə bu ailədə sevgi yox dərəcəsindədi. Bax, elə müəllif də bu orta yaşlı qadının özəl dünyasına ikinci qəhrəmanını sevgi xəttiylə çıxarır. Anası ağır xəstə olan, özü Füzuli qaçqını olan Elxan anasını xilas etmək üçün döymədiyi qapı qalmır. Heç kim ona maddi dəstək vermir. Ana yalnız Türkiyədə ağır əməliyyat olunmalıdır. Bunu üçün pul tapmaq lazımdır. Elxan sevdiyi qızın vasitəsilə, yəni Aynurun dilindən öyrənir ki, Bibixanımın yaxşı qızılları, maddi imkanları var. Və elə bu da onun ağlına bir plan salır. Nə yolla olur-olsun Bibixanıma eşq elan etmək, ona yaxınlaşmaq və onun sərvəti hesabına anasını xilas etmək. Qurulmuş plan baş tutur. Həyatında sevgi olmayan Bibixanım yaşının bu çağında gənc aşiqinə inanır və onu yatağına buraxır. Və beləcə, Elxan da anasını müalicə etdirmək üçün günün birində evdən kifayət qədər qızıl götürüb anasını Türkiyəyə aparır. Amma artıq gec idi. O, anasını itirir. Digər tərəfdən plana razılıq vermiş Aynur səhvini başa düşür. Öz əli ilə öz sevgilisini başqa bir ünvana göndərib. İşsiz-gücsüz olan Elxan Türkiyədən qayıdandan sonra Bibixanıma qızılları götürdüyünü etiraf edir. Onun etirafı sevgisini tapmış Bibixanımın əsəbini soyudur, bağışlayır Elxanı. Lakin hadisələrin dramatik inkişafı yavaş-yavaş Bibixanıma Elxanın məqsədini bəlli edir. Sonda özü onu yanından qovur, ailəsinə qayıdır. Və ən qəribə, bəlkə də müəllifin özünün də hiss etmədən yaratdığı kuliminasiya nöqtəsi...

Məlum olur ki, Bibixanımın oğlu ilə Elxan əsgər yoldaşı olublar. Ölkə xaricindən qayıdan İlkin vağzal yaxınlığında Elxanla qarşılaşır. Köhnə əsgər yoldaşları bir-birini tanıyıb masa arxasında keçmişi xatırlamağa başlayırlar. Onsuz da içki düşgününə çevrilmiş Elxan get-gedə özünü, sözünü itirir və İlkinə yaşlı bir qadını aldadıb onunla sevgi yaşadığını, onun pullarını xərclədiyini deyir. Söhbət İlkinin diqqətini bir az da artırır və qadının adını soruşur. Elxan da heç nə olmamış kimi İlkinə Bibixanımı təqdim edir. Bu yerdə İlkin masanın üzərindəki butulkanı götürüb Elxanın başına çırpır. Qan içərisində çapalayan Elxana rəhm etmədən şüşə qırığını onun boğazına çəkir...

Həmin an Bibixanım da öz evində yalqızdı. O da artıq alkoqol düşkünü olan ərini itirib. Və baş verən hadisələrdən həyata, yaşama ümidi sona çatıb. Elə bu durumun içərisində də oturduğu yerdə yuxuya gedib. Yuxuda da babasının əlindən tutub uzun bir cığırla yol gedir. Bu onun oyanmadığı yuxudu...

Bəli, qıca məzmununu sizə təqdim etdiyim bu romanı oxunaqlı edən təbii ki, kriminal və bir az da intim duyğuların canlı olmasıdı. Digər tərəfdən hadsələrin baş vermə zamanı, məkanı yaxın illərə təsadüf edir və həmin qarışıq zamanın ovqatını sərgiləyir. Ona görə də müəyyən qüsurlarına baxmayaraq, bu roman Gülər Eldarqızının böyük söz dünyasına açılan yolunda uğurlu bir addım hesab oluna bilər. Düşünürəm ki, müəllifin hələ daha mükəmməl bədii əsərlər ortaya qoymaq imkanları öndədir. Ona görə də ona uğurlar diləyir və yaradıcılıq dözümü arzulayıram.

***ƏBÜLFƏT MƏDƏTOĞLU***